# Azərbaycan dünya iqtisadiyyatında xüsusi çəkisini artırır

***Azərbaycan hazırda beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verir, ölkəmizin təşəbbüsü və iştirakı ilə qlobal layihələr uğurla reallaşdırılır. Artan iqtisadi güc və beynəlxalq nüfuz Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaradır. Bu layihələrin uğurla həyata keçirilməsi isə ölkəmizin regionda proseslərin inkişaf vektorunu müəyyənləşdirən və dünya iqtisadiyyatında söz sahibi olan "qlobal oyunçu" statusunu təmin edir.***



Azərbaycan dövləti hazırda postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022–2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olur. Bu strateji dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsi ilə iqtisadi artımın müasir və davamlı mənbələri hərəkətə gətirilir, milli iqtisadiyyatın innovasiya yönümü daha da gücləndirilir, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiya yolu ilə Azərbaycan dövləti öz qüdrətini daha da artırır.

Son 19 ildə ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik təmin edilib, sosial rifahı dəstəkləyən iqtisadi artıma nail olunub. Ölkədə möhkəm siyasi-ictimai sabitlik və təhlükəsizlik, uzaqgörən daxili və xarici siyasət qarşıya qoyulmuş mürəkkəb sosial-iqtisadi məqsədlərin, habelə ölkənin ərazi bütövlüyünün bərpa edilməsində həlledici rol oynayıb.

Milli iqtisadiyyatın aparıcı sahələrində müasir texnologiyaların geniş tətbiqi və keyfiyyətli insan kapitalının cəlbi nəticəsində məhsuldarlıq xeyli artıb. Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı dünyada iqtisadi artımın yavaşıması barədə proqnozlar verdiyi halda, Azərbaycanda bu ilin ilk altı ayında iqtisadi artım sürətlənərək 6,2 faizə çatıb.

Qeyd edək ki, Azərbaycanda iqtisadi artımın indiki səviyyəsi bu il üçün dünya üzrə orta artım proqnozunu iki dəfə üstələyir. Deməli, Azərbaycan dünya iqtisadiyyatında xüsusi çəkisini artırır. Özü də Azərbaycanda iqtisadi artım daha çox innovasiya yönümlü olub qeyri-neft sənayesi, nəqliyyat, informasiya və rabitə xidmətləri sahəsindədir.

Azərbaycanda sənayeləşmə və rəqəmsallaşma orta dünya göstəricisini iki-üç dəfə üstələyir. Dördüncü sənaye inqilabının əhatə etdiyi bio, fiziki və rəqəmsal texnologiyaların tətbiqinin genişlənməsi, insan kapitalının güclənməsi, idarəetmənin səmərəliliyinin yüksəlməsi, eyni zamanda, bu ilin ilk altı ayında qeyri-neft-qaz sektorunda əsas kapitala yönəldilən vəsaitlərin 18,5 faiz artması iqtisadi artımı şərtləndirən amillərdir. Xüsusən də qeyri-neft-qaz sahəsində əsas fondlara yatırılan sərmayənin fiziki və mənəvi aşınmanı qarşılaması, əsas fondların verimliliyini yüksəldir ki, bu da iqtisadi artımın drayverinə çevrilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə biznes mühitinin əlverişliliyinin yüksəldilməsi və dövlət təşviqlərinin verilməsi siyasəti ölkəyə sərmayə cəlbini və sərmayə qoyuluşunun səmərəliliyini artırır.

Yeri gəlmişkən, son illərdə milli iqtisadiyyatımızın dayanıqlı inkişafının təmin olunması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində elmi yanaşma, qabaqcıl texnologiya və təcrübənin tətbiqi ilə yaradılan aqroparklar ölkəmizdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə, idxaldan asılılığın azaldılmasına, regionların tarazlı inkişafının və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, həmçinin emal sənayesinin yerli xammalla təminatının yaxşılaşdırılmasına mühüm töhfələr verir. Aqroparkların yaradılması aqrar sahədə qeyri-neft sektorunun inkişafını sürətləndirməklə bərabər, ixracyönümlü məhsulların sayının artmasında və ölkənin ixrac potensialının güclənməsində əhəmiyyətli rol oynayır.

Respublikamızın 32 rayonu üzrə 239,3 min hektar ərazidə ümumi layihə dəyəri 2,4 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatı yaradılıb. Bunlardan 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq fəaliyyəti, 2-si isə çeşidləmə-qablaşdırma, emal və logistika sahələri üzrə ixtisaslaşıb.

İndiyədək aqroparklara 1,3 milyard manat özəl investisiya qoyulub. Bununla yanaşı, dövlət tərəfindən aqroparklara müvafiq dəstək tədbirləri görülüb. Belə ki, investisiya təşviqi sənədi almış 27 aqroparkdan 26-na texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 43,7 milyon manat dəyərində güzəşt tətbiq olunub, 25 aqroparkın yaradılması və ya fəaliyyətinin genişləndirilməsi üçün 184,2 milyon manat güzəştli kredit verilib.

Aqroparklar ötən müddətdə məşğulluq səviyyəsinin artırılmasında da mühüm rol oynayıb. Hazırda aqroparklarda ümumilikdə 4491 işçi daimi, 6303 işçi isə mövsümi işlə təmin olunub. Gələcəkdə əlavə 4672 iş yerinin yaradılması nəzərdə tutulub.

Respublikada sənaye parklarının yaradılması da diqqət mərkəzində saxlanılır. Hazırda Azərbaycanda yeddi sənaye parkı- Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Ağdam və Araz Vadisi İqtisadi Zonası sənaye parkları, eləcə də beş sənaye məhəlləsi – Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəlləri fəaliyyət göstərir.

Ötən il 2,4 milyard manatlıq məhsul istehsalı ilə sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 15,5 faiz, qeyri-neft sənaye məhsullarının ixracında isə xüsusi çəkisi 30,8 faiz (959,3 milyon manatlıq ixrac) təşkil edib.

Sənaye zonalarında istehsal edilən məhsullar dünyanın 35-dən çox ölkəsinə ixrac olunur. Prezident İlham Əliyevin sənaye siyasətinin nəticəsində Azərbaycan Avropada sənayenin ümumi daxili məhsulda (ÜDM) xüsusi çəkisinə görə öndə gedən ölkələrdəndir. Dünya Bankının hesablamalarına görə, sənayenin ÜDM-də payı Azərbaycanda 40 faizdən çox olduğu halda, dünyada orta göstərici 24,8 faizdir.

Sirr deyil ki, ölkənin iqtisadi inkişafını əks etdirən göstəricilərdən biri onun xarici ticarət dövriyyəsi, xüsusilə də ixracıdır. Bu ilin yanvar-iyun aylarında Azərbaycan xarici ölkələrlə 24,8 milyard ABŞ dolları dəyərində ticarət əməliyyatı aparıb ki, bu da ötən ilin eyin dövrü ilə müqayisədə 74,9 faiz çoxdur. Ötən 6 ayda xarici ticarət dövriyyəsinin 18,479 milyard ABŞ dolları ixracın, 6,357 milyard ABŞ dolları isə idxalın payına düşüb. Son 1 ildə ixrac 2,1 dəfə, idxal isə 17,9 faiz artıb. Göründüyü kimi, ixracla idxalın dəyəri, eləcə də artım templəri arasındakı fərq göz qabağındadır. Son nəticədə xarici ticarətdə 12,1 milyard ABŞ dollarlıq müsbət saldo yaranıb. Bu isə illik müqayisədə 3,5 dəfə çoxdur.

Daha bir ürəkaçan məqam isə son bir ildə qeyri-neft-qaz ixracının 25 faizdən çox artmasıdır. Bu isə o deməkdir ki, Azərbaycanda istehsal olunan qeyri-neft-qaz məhsulları təkcə yerli tələbatın ödənilməsi üçün nəzərdə tutulmayıb. Onların təkcə ölkə daxilində deyil, həm də ölkə xaricində alıcıları var.

Son illər Azərbaycan hökuməti həm də xarici dövlət borcunu azaltmağa və gələcək nəsillərə borc saxlamağa çalışır. Əgər ötən il iyulun 1-nə ölkənin xarici borcunun ÜDM-nə nisbəti 16,6 faiz olubsa, bu il iyulun 1-nə 10,7 faiz təşkil edib.

Hazırda Azərbaycan demək olar ki, kredit almır və əvvəlcədən aldığı kreditləri qaytarır. Bundan başqa, ölkə iqtisadiyyatı inkişaf etdikcə, ümumi daxili məhsul artdıqca xarici borcun ÜDM-ə nisbəti də azalır. Halbuki bir sıra inkişaf etmiş ölkələrdə xarici borcun məbləği ÜDM-in dəyərindən 2 dəfə çoxdur. Azərbaycanla uzun illər münaqişəli vəziyyətdə yaşamış Ermənistanda isə xarici borcun ÜDM-ə nisbəti 50 faiz civarındadır.

Azərbaycan əhalisinin borc yükü azalmaqla paralel nominal gəliri də artır. Bu ilin ölkə vətəndaşları 33 milyard manat gəlir əldə edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 19,9 faiz çoxdur. Nəzərə alsaq ki, ölkədə illik inflyasiya 12,9 faiz olub, deməli, əhali gəlirinin artımının xeyrini görüb, təxminən 7 faiz artım vətəndaşların sərəncamında qalıb.

İqtisadiyyatın sürətli bərpası və dayanıqlı inkişafı, o cümlədən, rəqabətli istehsal və emal sahələrinin fəaliyyəti müasir infrastrukturla dəstəklənəcək, prioritet sahələrdə sahibkarlara geniş çeşidli stimullar veriləcək, vergi-gömrük azadolmaları və güzəştli maliyyələşmə alətləri geniş tətbiq olunacaq, kreditlərin və investisiyaların sığortalanması mexanizmi yaradılacaq. Ekoloji təmiz və iqtisadi cəhətdən səmərəli bərpa olunan enerji mənbələrindən istifadə genişləndirilməklə "yaşıl enerji zonası" konsepsiyası tətbiq ediləcək. Nəticədə, ümumi məhsul buraxılışında, ixracda və məşğulluqda işğaldan azad edilmiş ərazilərin payı davamlı artacaq. Bu Prioritet "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində icra ediləcək.

**V.BAYRAMOV,**
**"Xalq qəzeti"**